# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 93

Bakı şəhəri "11" noyabr 2015-ci il

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 11.03.2011-ci il tarixli 30 nömrəli əmrinə dəyişiklik edilməsi barədə"**

"Əlilliyin və sağlamlıq imkalarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 595 nömrəli Fərmanında nəzərdə tutulan tapşırıqların icrasını təmin etmək məqsədilə" Tibb müəssisələrində vətəndaşların əmək qabiliyyətinin itirilməsinin ekspertizası işinin təkmilləşdirilməsi barədə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 11.03.2011-ci il tarixli 30 nömrəliəmri ilə təsdiq edilmiş "Həkim Məsləhət Komissiyası haqqında Əsasnamə"yə dəyişikliyin edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 11 mart 2011-ci il tarixli 30 nömrəli əmri ilə təsdiq edilmiş "Həkim Məsləhət Komissiyası haqqında Əsasnamə"nin Ümumi müddəalar hissəsinin 5-ci bəndi yeni redaksiyada verilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin bütün səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, tabeliklərində olan tibb müəssisələrində vətən-daşların əmək qabiliyyətinin itirilməsinin ekspertizası işinin bu əmrlə aparılan dəyişikliyə uyğun təşkil olunması təmin edilsin.
3. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə olunsun.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası
Səhiyyə Nazirinin
"11" 11 2015-ci il tarixli
93 nömrəli əmri ilə təsdiq
edilmişdir

## Həkim Məsləhət Komissiyası haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial sığorta haqları ödəyən vətəndaşlara xəstəlik vərəqələrinin verilməsi qaydası haqqında" Təlimata əsasən hazırlanmışdır.

2. Bu əsasnamə əmək qabiliyyətinin itirilməsinin ekspertizasını, tibbi və əmək reabilitasiyası məsələlərinin təşkilini tənzimləyən sənəddir.

3. Həkim Məsləhət Komissiyası ( bundan sonra HMK) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

4. HMK-sı xəstəxanalarda, ambulator-poliklinik müəssisələrdə, ixtisaslaşdırılmış tibb müəssisələrində, qadın məsləhətxanalarında, ali tibb təhsili müəssisələrinin, elmi-tədqiqat institutlarının klinikalarında və digər tibb müəssisələrində təşkil oluna bilər.

5. HMK-nın tərkibinə daimi üzv kimi həkim-əmək ekspertizası sahəsində bilik və təcrübəsi olan həkim terapevt, cərrah və nevropatoloq daxil edilir.

Ehtiyac yaranan hallarda komissiyanın işinə həmin müəssisənin və digər tibb müəssisələrin müvafiq mütəxəssisləri cəlb oluna bilər.

İxtisaslaşdırılmış tibb müəssisələrində komissiyanın tərkibinə həkim-əmək ekspertizası sahəsində bilik və təcrübəsi olan müvafiq profilli mütəxəssislər daxil edilir.

Həkim Məsləhət Komissiyasının sədri funksiyası:

- ambulator-poliklinik tibb müəssisələrinin baş həkiminə;

- elmi-tədqiqat institutlarında və mərkəzlərdə klinikanın baş həkiminə;

- birləşmiş xəstəxanalarda, o cümlədən rayon və şəhər mərkəzi xəstəxanalarında baş həkimə, baş həkimin poliklinika işləri üzrə müavininə və ya poliklinika şöbəsinin müdirinə həvalə edilir.

6. HMK-nın tərkibi yuxarı səhiyyə təşkilatının əmri ilə təyin olunur.

7. Xəstələr HMK-na şöbə müdiri, müalicə həkimi tərəfindən təqdim olunurlar. Komissiya tərəfindən xəstəyə baxıldıqdan və aparılan müayinələrin nəticələri öyrənildikdən sonra müvafiq rəy qəbul olunur.

8. HMK-sı tərəfindən verilən rəylər və qərarlar barədə məlumatlar həmin gün HMK-nın jurnalına (035u nömrəli forma) yazılır.

**II. HMK-nın funksiyaları**

9. HMK-nın funksiyalarına aşağıdakılar daxildir:

9.1. əmək qabiliyyətinin müvəqqəti və dayanıqlı itirilməsində yaranan mürəkkəb və münaqişəli məsələlərin həll edilməsi;

9.2. xəstəyə müəyyən olunmuş diaqnozun, aparılmış müayinələrin və müalicənin düzgünlüyünə, əmək qabiliyyəti olmamaq vərəqələrinin verilməsinin əsaslılığına nəzarət edilməsi, müalicə həkimi tərəfindən verilmiş əmək qabiliyyəti olmamaq vərəqələrinin müddətinin qanunvericiliklə müəyyən olunmuş qaydada artırılması;

9.3. ehtiyac olduqda xəstələrin ixtisaslaşdırılmış müalicə müəssisələrinə məsləhətə göndərilməsi;

9.4. sığorta haqqı ödəyənlərə müvəqqəti olaraq, onlar respublikadan xaricdə olduqda əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə əlaqədar verilmiş sənədlərin əsaslığı şübhə doğurmursa, həmin sənədlərin xəstəlik vərəqələri ilə əvəz olunması;

9.5. aşağıda göstərilən məsələlərin həll edilməsi məqsədilə Tibbi Sosial Ekspert Komissiyalarına (bundan sonra TSEK) göndərişin verilməsi:

- əlillik əlamətləri olan xəstələrə əlillik dərəcəsinin müəyyən edilməsi və ya müalicə müddətinin artırılması;
- TSEK-sı tərəfindən təyin edilmiş əlillik müddətinin başa çatması ilə əlaqədar xəstələrin təkrar müayinə edilməsi;
- sağlamlıq imkanları məhdud uşaqlara müavinətin müəyyən edilməsi;
- əlillik dərəcəsi olan şəxslərin vaxtından əvvəl təkrar müayinəsi (əlillik qrupundan çıxarılması, əlillik dərəcəsinin və ya əlillik dərəcəsinin artırılması üçün);
- əlilliyin səbəbinin dəyişdirilməsi;
- şəxsin işi ilə əlaqədar aldığı zədə və ya sağlamlığının digər pozulması halları zamanı əmək qabiliyyətinin itirilməsi dərəcəsinin (faizinin) müəyyən edilməsi;
- əlillərinin texniki və digər reabilitasiya vasitələri (avtomobil, əlil arabaları və s.) ilə təmin olunması;

9.6. vətəndaşların müvəqqəti və ya daimi olaraq yüngül işə və ya sağlamlığı üçün zərərli istehsalat faktorları olmayan işə keçirilməsinin zəruriliyi barədə rəy verilməsi. Bu halda HMK-sı işçinin ixtisasını nəzərə almaqla tövsiyə olunan işin xarakterini müəyyən edir;

9.7. sağlamlıq vəziyyəti ilə əlaqədar olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbə və şagirdlərinə akademik məzuniyyətin verilməsinin və ya digər fakültəyə keçirilməsinin zəruriliyi barədə rəy verilməsi;

9.8 sağlamlıq vəziyyəti ilə əlaqədar orta ümumtəhsil məktəb şagirdlərinə keçid və ya buraxılış imtahanlarından azad olunma barədə rəy verilməsi;

9.9. vətəndaşlara sağlamlıq vəziyyətinə görə növbədənkənar mənzilin verilməsi və ya əlavə mənzil sahəsinə ehtiyac olması barədə rəy verilməsi;

9.10. vətəndaşların sağlamlıq vəziyyəti üçün zərərli iqlim şəraiti olan yaşayış yerindən ailə üzvləri ilə birgə, səhhətinə uyğun iqlim şəraiti olan əraziyə köçməsi barədə rəy verilməsi.